SƏS
www.sesqazeti.az
facebook Ses Media Holding
23 fevral 2019-cu il

# BSU-da Beynəlxalq Ana Dili Günü qeyd olunub

***Bakı Slavyan Universitetində İbtidai təhsil kafedrasının təşkilatçılığı ilə Beynəlxalq Ana Dili Gününə həsr olunmuş tədbir keçirilib. Tədbirin əvvəlində Dövlət Himni səsləndirilib.***



Tədbiri giriş sözü ilə açan İbtidai təhsil kafedrasının dosenti Şükufə Ağakişiyeva bildirib ki, tədbir "Auditoriya+" layihəsi çərçivəsində keçirilir. Ş.Ağakişiyeva "Auditoriya+" barədə məlumat verərək, kafedra tərəfindən layihə çərçivəsində tələbələrin intellektual səviyyəsinin artırılması məqsədilə maraqlı tədbirlər təşkil olunduğunu diqqətə çatdırıb. Tədbirdə çıxış edən AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun şöbə müdiri, professor İsmayıl Məmmədov "Ana dilimiz güvən yerimizdir" adlı məruzə ilə çıxış edib. İ.Məmmədov deyib ki, cəmiyyətdə Azərbaycan dili ilə bağlı müsbət fikir yaratmaq, ana dilimizin inkişafı, onun nöqsansız şəkildə formalaşması istiqamətində təbliğat və təşviqat işlərinin aparılması günümüzün aktual məsələlərindən birinə çevrilib. BSU-nun Müasir Azərbaycan dili kafedrasının müdiri, professor İkram Qasımov "Ana dilimizi qoruyaq" mövzulu məruzəsində Prezident İlham Əliyevin ana dili ilə bağlı apardığı siyasət nəticəsində, Azərbaycan dilinin inkişafı məsələsinin daim gündəmdə olduğunu söyləyib. Mətbuatın, artıq dilimizə nüfuz etdiyini deyən İ.Qasımov, qeyd edib ki, dil sahəsindəki ciddi problemlərdən biri də televiziya kanallarında nitq mədəniyyətinin kobud şəkildə pozulması ilə bağlıdır.

Tədbirdə çıxış edən Türkologiya kafedrasının müdiri, dosent Şaban Hüseynov milli mətbuatımızın ana dilinin təmizliyinin göstəricisi olduğunu deyib, dilin saflığının qorunub-saxlanmasında gənclərin qarşısında mühüm öhdəliklər dayandığını diqqətə çatdırıb.

BSU-nun Əlavə və qiyabi təhsil şöbəsinin müdiri, Türkologiya kafedrasının dosenti Dürdanə Əliyeva "Müəllim və ana dili" mövzusunda çıxış edərək, təhsildə ana dilinin inkişafı ilə bağlı məsələyə toxunub. O bildirib ki, müəllimin öz nitqində dialekt və şivələrdən istifadə etməsi dilimizin nöqsan və qüsurlarla gənc nəslə aşılanmasına gətirib çıxarır. İbtidai təhsil kafedrasının dosenti Çimnaz Məmmədova "Ana dili ruhumuz, eşqimiz, sərvətimizdir" adlı çıxışında milli şüurun və milli kimliyimizin formalaşmasında ana dilimizdə olan sözlərin etnik cəhətdən düzgün araşdırılmasının vacibliyini qeyd edib. Ana dilini milli sərvətimiz adlandıran Ç.Məmmədova gəncləri bu sərvəti yad dillərin təsirindən qorumağa səsləyib.

Tədbirin sonunda BSU tələbələri tərəfindən ana dilinə həsr olunmuş şeirlər səsləndirilib, mövzu ilə bağlı müzakirələr aparılıb.

***ZÜMRÜD***